**Nəzarət-kassa aparatının plombu pozulduqda...**

Vergi Məcəlləsinə müvafiq olaraq, məcəllənin (VM) 16.1.8-ci maddəsində qeyd edilən fəaliyyət növləri istisna olmaqla, vergi ödəyicisi nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək vəzifəsi daşıyır. İstismar zamanı nəzarət-kassa aparatının plombu pozulduqda və ya başqa nasazlıqlar yarandıqda vergi ödəyicisi vergi orqanlarına dərhal məlumat verməklə, nəzarət-kassa aparatından istifadəni müvəqqəti dayandırmalı və həmin müddətdə nağd pul hesablaşmalarının qeydiyyatının müvafiq icra hakimiyyəti orqanı (Vergilər Nazirliyi) tərəfindən müəyyən edilmiş qaydada aparılmasını təmin etməlidir (VM, maddə 16.1.10).
Vergilər Nazirliyinin 28 aprel 2008-ci il tarixli əmri ilə təsdiq edilmiş «İstismar zamanı nəzarət-kassa aparatının plombunun pozulduğu və başqa nasazlıqlar yarandığı müddətdə nağd pul hesablaşmalarının qeydiyyatının aparılması Qaydası»nın (bundan sonra-Qaydalar) 2-ci bəndinə əsasən, nasaz NKA-dan istifadə edilməsi müvəqqəti olaraq (nasazlıq aradan qaldırılana qədər) dayandırılır.
NKA-nın istismarı zamanı, plombun pozulması da daxil olmaqla, istənilən nasazlıq yarandıqda vergi ödəyicisi tərəfindən bu barədə təcili vergi orqanına məlumat və Servis Texniki Xidmət Mərkəzinə sifariş (çağırış) verilir. Servis Texniki Xidmət Mərkəzinə verilmiş sifariş haqqında vergi ödəyicisi və ya onun bu işə məsul etdiyi şəxs tərəfindən Qaydaların 2 nömrəli əlavəsində verilmiş forma üzrə «Nəzarət-kassa aparatına texniki xidmət kitabı»nda müvafiq qeydlər aparılır.
Nazirlər Kabinetinin 1995-ci il 28 dekabr tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında nəzarət-kassa aparatlarının satışı, istismarı, servis-texniki xidmət və təmiri qaydaları haqqında» Əsasnaməyə əsasən, Servis Texniki Xidmət Mərkəzi çağırış verildiyi andan şəhər şəraitində 36 saatdan və kənd yerləri şəraitində 72 saatdan çox olmayan vaxt ərzində NKA-nın təmirini təmin etməlidir.
Qaydaların 2-ci bəndində qeyd edilmişdir ki, təmirə göndərilmiş nəzarət-kassa aparatında vergi orqanının plombunun açılmasına zərurət yarandıqda və ya plombun pozulduğu hallarda vergi ödəyicisi tərəfindən vergi orqanına yazılı müraciət olunur. Müraciət əsasında vergi orqanının əməkdaşı tərəfindən NKA-nın plombu açılır və bu barədə nəzarət-kassa aparatının plombunun pozulmasına dair akt tərtib edilir.
NKA-dan istifadə edilməsi müvəqqəti olaraq (nasazlıq aradan qaldırılana və ya elektrik enerjisi ilə təchizat bərpa edilənə qədər) dayandırıldığı müddətdə vergi ödəyicisinin fəaliyyət göstərdiyi obyektdə həyata keçirilən nağd pul hesablaşmalarının qeydiyyatı Qaydaların 1 nömrəli əlavəsində verilmiş forma üzrə «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda vergi ödəyicisi tərəfindən aparılır. Bu kitabın səhifələri nömrələnir, qaytanlanır və vergi orqanının rəhbəri (rəhbərin müavini) tərəfindən imzalanaraq gerbli möhürlə təsdiq edilir.
Nağd pul hesablaşmalarının qeydiyyatı «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda aparılan zaman vergi ödəyicisi tərəfindən hər bir müştəridən (alıcıdan, sifarişçidən) alınmış nağd pul vəsaiti kitabın ayrıca sətrində yazılmaqla uçota alınır. Bu zaman qeydiyyatın aparıldığı sətirdə nağd pul məbləğinin alındığı tarix, vaxt (saat, dəqiqə), NKA-nın işləməməsinin səbəbi, satılmış malın (görülmüş işin, göstərilmiş xidmətin) adı, ölçü vahidi, bir vahidinin qiyməti, sayı (miqdarı) və dəyəri (manat, qəpik) mütləq göstərilir.
NKA-dan istifadə edilməsi müvəqqəti olaraq (nasazlıq aradan qaldırılana və ya elektrik enerjisi ilə təchizat bərpa edilənə qədər) dayandırıldığı müddətdə vergi ödəyicisinin fəaliyyət göstərdiyi obyektə daxil olan malların qeydiyyatı Qaydaların 1 nömrəli əlavəsində verilmiş forma üzrə «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda vergi ödəyicisi tərəfindən aparılır.
Obyektə daxil olmuş malların qeydiyyatını «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda aparan zaman hər bir malgöndərəndən alınmış mal-material dəyərliləri satış sənədinə (qaimə-faktura və s.) uyğun olaraq, kitabda hər bir malın adı ayrıca sətirdə yazılmaqla uçota alınır. Bu zaman qeydiyyatın aparıldığı sətirdə malın alındığı tarix, vaxt (saat, dəqiqə), NKA-nın işləməməsinin səbəbi, alınmış malın adı, ölçü vahidi, bir vahidinin qiyməti, sayı (miqdarı) və dəyəri (manat, qəpik) mütləq göstərilir.

NKA-nın təmirinin başa çatması və aparatın vergi ödəyicisinə təhvil verilməsinə dair Servis Texniki Xidmət Mərkəzinin nümayəndəsi tərəfindən Qaydaların 2 nömrəli əlavəsində verilmiş forma üzrə «Nəzarət-kassa aparatına texniki xidmət kitabı»nda müvafiq qeydlər aparıldıqdan və ya elektrik enerjisi ilə təchizat bərpa edildikdən dərhal sonra, vergi ödəyicisi tərəfindən «Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda uçota alınmış nağd pul vəsaitlərinin məbləği malların çeşidi (görülmüş işlərin, göstərilmiş xidmətlərin növü) üzrə toplanaraq çeşidlər (növlər) üzrə cəmi məbləğ, habelə həmin kitabda uçota alınmış mal-material dəyərliləri ayrı-ayrılıqda hər bir mal çeşidi üzrə NKA-nın yaddaşına bərpa edilir.
«Nəzarət-kassa aparatının işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda kitabdan istifadənin başaçatma tarixi və vaxtı qeyd olunan sətirdə müvafiq «dəyəri» sütunlarında NKA-ya bərpa edilən yekun məbləğlər göstərilir. Bu zaman bərpa çeklərinin kitabın qeyd sütununda yapışdırılması təmin edilir.
Təmir olunmuş NKA vergi ödəyicisinə təhvil verildikdən sonra, vergi ödəyicisinin verdiyi məlumata əsasən, vergi orqanının aidiyyəti əməkdaşı tərəfindən NKA yenidən plomblanır və bu barədə nəzarət-kassa aparatının plomblanmasına dair akt tərtib edilir.

Hüquq idarəsi